# TƏCİLİ VƏ TƏXİRƏSALINMAZ TİBBİ YARDIM HANSI HALLARDA ÇAĞIRILMALIDIR




İCBARİ
TİBBİ SIĞORTA

TƏBİB
Tibbi Ərazi Bölmələrini
İdarəetmə Birliyi

# Hansı hallarda təcili və təxirəsalınmaz



Ürək tutması



Huşun itirilməsi



Donmalar



Böyrək sancısı



Astma tutması



Zədələnmələr



Qıcolmalar



Suda boğulma



Fövqəladə hallar



Arterial təzyiqin nəzərəçarpan dəyişikliyi



Zərərçəkənlərin olduğu yol-nəqliyyat qəzaları



Ölümün təsdiqlənməsi




Yüksək hərarət (dərman qəbulundan sonra enməyən hərarət)

Zəhərlənmələr (qida, buxar və qaz, zəhərli heyvan və həşəratların dişləməsi, kimyəvi və ya dərman preparatları)



Uşaqlarda yüksək hərarətlə müşayiət olunan səpkilər



## Aşağıdakı hallarda təcili və təxirəsalınmaz tibbi yardım çağırışa getmir:

1. Təcili tibbi yardım tərəfindən planlı müalicə təyinatının alınması və ya planlı müayinənin (EKQ çəkilməsi) aparılması
2. Sahə həkimi/ailə həkimi tərəfindən planlı müalicə və prosedurların aparılması (inyeksiya, venadaxili infuziya (“sistemin köçürülməsi”), sarğı) və ya xəstəlik vərəqəsinin verilməsi
3. Stomatoloji yardımın göstərilməsi
4. Pasiyentin öz istəyi ilə müalicə aldığı tibb müəssisəsindən digərinə ambulans ilə daşınması, köçürülməsi
5. Tibb müəssisəsində tibbi xidmət göstərildikdən sonra pasiyentin evə və digər ünvanlara daşınması
6. Vəfat etmiş şəxsin daşınması
7. Ev heyvanlarına tibbi yardımın göstərilməsi

# Təcili və təxirəsalınmaz tibbi yardım çağıran zaman bunları bilmək lazımdır:

Xəstənin ad, soyad, yaş və cinsiyyətini bildirin!

Ünvanı dəqiq söyləyin!  (küçənin adı, ev, bina, giriş bloku və mənzilin nömrəsi, mərtəbə, domofonun şifrəsi)

Şikayəti və hadisənin detallarını mümkün olduğu qədər dəqiq təsvir edin!

Təcili tibbi yardımın dispetçerinə mütləq öz telefon nömrənizi verin!

Zəng vurarkən yanınızda kağız və qələmin olmasına diqqət yetirin. Ola bilər ki, təcili tibbi yardım gələnə qədər sizə bəzi məsləhətlər verilsin.

Dispetçer telefon danışığını bitirməyənə qədər onunla əlaqəni kəsməyin.

Ünvanı tapmaq çətindirsə, təcili tibbi yardım avtomobilini qarşılamaq üçün mütləq küçəyə çıxın. Bu yolla siz vaxta qənaət edərək, həkimin sizə daha tez çatmasına yardım edərsiniz.

İCBARİ TİBBİ SIĞORTA

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

# İcbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olan təcili və təxirəsalınmaz tibbi yardım xidmətləri:

- Ambulans xidməti
- Ambulator və stasionar şəraitdə təcili və təxirəsalınmaz tibbi yardım xidmətləri




**Xəstənin vəziyyəti onun sağlamlığı və həyatı üçün təhlükə yaradırsa, dərhal təcili tibbi yardım üçün “103” nömrəsinə zəng edin!**

# tibbi yardıma müraciət olunmalıdır?

